

# Ermənistan "seçki" adı ilə tamaşalar keçirir

*Ermənistan KİV-in yaydığı məlumata görə, avqustun 22-də bu ölkənin hökuməti "tanınmamış Qarabağda seçkiləri izləmək üçün ilk dəfə olaraq xarici QHT-lərə vəsait ayırdı". Üstəlik, bu "görünməmiş bir qərar" kimi qələmə verilir. Onların təbirincə, "Ermənistan hökuməti həmişə demokratiya üçün pul istəmək rolunda olubsa, indi donor rolunda çıxış edir".*

Səh.3


# UNİKAL

№39 (1978) 24 avqust 2019-cu il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




# Hacıbala Abutalıbovun inanılmaz sərvəti ortaya çıxdı

## Baş nazir müavini mer olduğu illərdə qohumları ilə yaxın adamlarının adına saysız-hesabsız bina və obyekt rəsmiləşdiribmiş

*Bir neçə gün əvvəl Baş Nazirin müavini Əli Əhmədov Kənd Təsərrüfatı naziri İnam Kərimovla birlikdə paytaxtdakı "Yaşıl bazar"da qiymətlərlə maraqlanıblar. Rəsmilər bazardakı qiymətlərin baha olduğunu bildiriblər.*

"Yayın ortasında kartofun qiyməti 2 manat olmaz", - deyə Əli Əhmədov bildirib.

Bundan bir qədər sonra isə məlum olub ki, Ə.Əhmədovun qiymətlərinin baha olduğunu dediyi bazar Baş Nazirin başqa bir müavini Hacıbala Abutalıbova məxsusdur.

"Unikal" qəzetinin əldə etdiyi məlumata görə, o, bazarın idarəçiliyini oğlu İsrafil Abutalıbov və yaxın adamı olan Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) Ticarət və Xidmət Departamentinin keçmiş direktoru Ramız Hacıyevə həvalə edib.

Səh.8

Səh.9



# Qarabağla bağlı təxribatlar ciddi narazılıq yaradıb

## "Mənim heç tum satmağa da yerim yoxdur"



*Son illər vəzifəli şəxslərin, dövlət məmurlarının, eləcə də deputatların biznesinin olması və bu qurumlarda qanunsuzluqların baş verməsi halları artıb. Artıq bununla bağlı hakimiyyətin ən yüksək müstəvisindən narazılıq ifadə olunub və ona qarşı sərt tapşırıqlar verilir. Bu və ya digər məsələlərlə bağlı "Unikal" qəzetinə müsahibə verən Vəhdət Partiyasının sədri, millət vəkili Tahir Kərimli maraqlı məqamlara toxunub.*

Səh.4

## Bələdiyyələrdən qəbiristanlıqlarla bağlı yenilik



*Yasamal Bələdiyyəsi qəbirstanlığın abadlaşdırılması ilə yanaşı, informasiya sisteminin formalaşdırılmasına başlayıb. Artıq bələdiyyə tərəfindən qəbiristanlığın saytı da yaradılıb. Məlumata görə, qəbirlərinin şəkilləri çəkiləcək və müvafiq saytda yerləşdiriləcək.*

Səh.10

## BMT "Dağlıq Qarabağ respublikası"nı tanımır - ŞƏRH



*Ermənistanın BMT yanında Daimi Nümayəndəliyinin yaydığı məktubla bağlı qeyd etmək lazımdır ki, BMT-nin nizamnaməsinə və təşkilatın müvafiq prosedur qaydalarına əsasən, təşkilatın hər bir üzvü beynəlxalq ictimaiyyət üçün maraq kəsb etdiyini düşündüyü informasiyaları digər üzv ölkələrin və təşkilatın Katibliyinin nəzərinə çatdırmaq məqsədi ilə sənəd yaymaq hüququna malikdir.*

Səh.3